# Macarıstan, Sloveniya, Polşa, Serbiya , Monteneqro, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Liviya, Oman, Qətər, Küveyt Xarici İşlər nazirlikləri Ermənistan və Azərbaycan arasında əldə edilmiş sülh razılaşmasını alqışlayırlar

Sloveniya Azərbaycan və Ermənistan liderlərini sülh müqaviləsinə görə, həmçinin onilliklərdən bəri davam edən münaqişəyə son qoyulmasına yol açan ABŞ Administrasiyasını roluna görə alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Sloveniya Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Paylaşımda həmçinin qeyd edilir ki, bu, şübhəsiz ki, region üçün yeni imkanlar və rifah gətirəcək.

* * *

Azərbaycan və Ermənistan liderləri tərəfindən razılaşdırılmış tarixi bəyannaməni məmnuniyyətlə alqışlayırıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Polşa Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Paylaşımda həmçinin qeyd edilir ki, ABŞ-nin dəyərli dəstəyi ilə əldə olunmuş bu razılaşma bölgədə suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında sabitlik və davamlı sülhün yolunu açır.

* * *

Serbiya avqustun 8-də ABŞ-nin himayəsi ilə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannaməni alqışlayır və hər iki tərəfin konstruktiv fəaliyyətini yüksək qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Serbiya Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Bu uğurun əldə edilməsində ABŞ Prezidenti Donald Trampın çox mühüm rolu xüsusi vurğulanır.

"Birgə Bəyannamə Cənubi Qafqazda davamlı sülh, sabitlik və firavanlıq yolunda mühüm addımdır. Serbiya qarşılıqlı hörmət və beynəlxalq hüquq və qaydaya tam riayət əsasında bütün ölkələr arasında dinc dialoq, regional əlaqə və genişləndirilmiş əməkdaşlığın tərəfdarı olmaqda davam edəcək", - deyə paylaşımda qeyd olunur.

* * *

Monteneqronun Xarici İşlər Nazirliyi Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşə dair imzaladığı Birgə Bəyannaməni alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə nazirliyin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilib.

"Monteneqro Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış sülh sazişini alqışlayır və xüsusi vasitəçilik roluna görə ABŞ-yə təşəkkürünü bildirir. Biz Cənubi Qafqazda davamlı sülh və sabitliyə doğru atılan bu mühüm addımı yüksək qiymətləndiririk", - deyə paylaşımda qeyd edilir.

* * *

Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Liviya, Oman, Qətər, Küveyt ABŞ-nin iştirakı ilə Ermənistan və Azərbaycan arasında əldə edilmiş sülh razılaşmasını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu, adı çəkilən ölkələrin XİN-lərinin bəyanatlarında yer alır.

Bəyanatlarda, bu razılaşmanın iki ölkə arasındakı əməkdaşlıqda və qonşuluq münasibətlərində yeni mərhələnin başlanğıcı olacağına inam ifadə olunur. Qafqaz regionunda sabitlik və inkişafın əsaslarını möhkəmləndirəcək bu tarixi razılaşma yüksək qiymətləndirilir, ABŞ-nin münaqişələrin diplomatik yollarla həllinə və gərginliyin azaldılmasına yönəlmiş səyləri təqdir edilir.

* * *

Macarıstanın xarici işlər naziri Peter Siyarto Azərbaycan ilə Ermənistan arasında Vaşinqtonda imzalanmış Birgə Bəyannaməni "həm Qafqazda, həm də dünyada təhlükəsizliyə doğru böyük addım" adlandırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə o, sosial şəbəkədəki səhifəsində paylaşım edib. "Donald Tramp bir daha göstərdi ki, o, sülh gündəminin prezidentidir. İndi biz ümid edirik ki, Hindistan-Pakistan, İran-İsrail və Ermənistan-Azərbaycan [münaqişələrinin] həllindən sonra Ukrayna ilə Rusiya arasındakı münaqişəyə də son qoyulacaq", - deyə Macarıstanın xarici işlər naziri yazıb.

Azərbaycan.- 2025.- 12 avqust (№167).- S.6.